

**Yazıçı Seyfəddin Dağlı "Ədəbiyyat və incəsənət" qəzetinin 1982-ci il 30 iyul tarixli "Gülüş sağlamlıq əlamətidir" məqaləsində Nəcəfqulunun şəxsiyyətini, səmimiyyətini və sənətini yüksək qiymətləndirir: - "Təbiətən təvazökar, qəlbən səmimi, zahirən sakit, azdanışan və azgülən, hətta qaraqabaq görünən Nəcəfqulu, öz çətin sənətinin mənası ilə bərabər, ölçüsünü də yaxşı bildiyindəndir ki, onun əsərləri bu qədər sanballı olur, rəssam nə duzlu karikaturalarında şorluğa varır, nə şirin şarjlarında şitliyə yol verir.**

# Nəcəfqulunun qrafika yaradıcılığı

**Elə buna görə də onun əsərləri nümayiş etdirilən sərgi salonunun bir tərəfindən gülüş dalğası qopanda, o biri tərəfi sükuta dalır". Nəcəfqulunun karikatura yaradıcılığı haqqında belə qiymətli fikirlər çoxdur, bu fikirlər nəinki görkəmli qələm sahibi olan yazıçılar, elm xadimləri tərəfindən, habelə rəssamın əsərlərini seyr edən adi zəhmət adamları tərəfindən də səslənir.**

Nəcəfqulunun qrafikasında satirik qrafikaya xüsusi yer verilmişdir. Əsası Əzimzadə tərəfindən qoyulmuş satirik qrafika və karikatura sahəsindəki nailiyyətlərinə görə, Nəcəfqulunu Əzimzadə məktəbinin davamçısı adlandırırlar (1).

Nəcəfqulunun karikaturaçı rəssam kimi yetişməsi və məşhurlaşmasında "Kirpi" jurnalının rolunu xüsusilə qeyd etmək lazımdır.

"Kirpi" jurnalının səhifələrində yüzdən çox karikaturası çap olunan rəssamın müxtəlif illərdə yaratdığı müxtəlif mövzulu karikaturalarını görürük. Bu karikaturalar 1974-cü ildə albom şəklində buraxılmış və alboma xalq yazıçısı Seyfəddin Dağlı giriş sözü yazmışdır: "Biz Nəcəfqulunu xalq rəssamımız Əzim Əzimzadənin xələfi adlandırırıq. Bəli, bu həqiqətən belədir. Eyni zamanda Nəcəfqulunu gənc karikaturaçılarımızın müəllimi adlandırmaqda da haqlıyıq" (2, s.3).

Albomdakı satirik lövhələri, karikaturaları nəzərdən keçirək. Bu karikaturalar mövzu baxımından müxtəlifdir. Bunlar məişət qayğıları, gənclərin tərbiyəsi, şəhər, kənd mövzularına, ekologiya və s. həsr olunmuşdur. Karikaturalarda çoxfiqurluluq üstünlük təşkil edir. Bəzi karikaturalarında "sözsüz" kəlməsi yazılmışdır. Bunlara qiymət vermək tamaşaçının ixtiyarına verilir. Albomda həmçinin köhnə Bakının tipləri, Cəlil Məmmədquluzadə və M.Ə.Sabirin əsərlərinə çəkilmiş illüstrasiyalar - satirik qrafika nümunələri verilmişdir. Sonda rəssamın dostluq şarjları öz əksini tapmışdır.

"Atam, anam, qulluqçu və mən", "İtini bəzər, özü lüt gəzər", "İncəsənət meymunları", "Uşağın onillik attestatını düzəltdim, ali məktəbə də gərək onu siz düzəldəsiniz" karikaturaları gənclərin tərbiyəsində mühüm rol oynayır. Akvarel, tuş, rəngli flamasterlərlə işlənilmiş bu karikaturalarda göstərilən eybəcərliklər bugünkü həyatımızda da az deyil.

Bu gün işgüzar, qeyrətli gənclərimizlə bərabər, ata kölgəsində gizlənən "gül balalar" veyil-veyil dolanır, tüfeyli həyat keçirirlər. "Itini bəzər, özü lüt gəzər" karikaturasında yarı çılpaq qız fiquru görünür, "İncəsənət meymunları"na baxarkən gülüş dolu istehza yaranır, məgər belə "meymunlar" bu gün azdırmı? Hələ də ali məktəblərə "arxa qapıdan" gələnlər var və təəssüf ki, bunların da havadarları yox deyildir.

Məişətimizdə gənclərin həyatı ilə bağlı belə karikaturaların tərbiyəvi əhəmiyyətini xüsusilə qeyd etməliyik. Rəssamın karikaturalarında şəhər mövzusuna nəzər saldıqda "ədabaz xanımlar", "tabe kişilər", "müdir-katibə münasibətləri", "elm və alimlər"dən bəhs olunursa, kənd mövzusunda əkin-biçin sahəsində, fermada baş verən əyriliklər və s. gülüş hədəfinə çevrilərək Nəcəfqulu fırçasının köməkliyi ilə tənqid atəşinə tutulur.

Budur... qarşımızda şəhərlə kənd arasındakı fərqi aradan qaldırmaq istəyən kişi surəti: - gülməli olduğu qədər də ağlamalıdır. Kənddə yaşamaq istəməyən, onu bəyənməyənlərə qarşı yönəldilmişdir bu tənqid. Şəhəri sevir, kəndin ləzzətini də unuda bilmir. Şəhərin ortasında özünə həyətyanı sahə düzəldərək inəyini, qoyununu otaran, qazlarına isti yuva düzəldən bu kişinin kənd həyatını bəyənməməsinə səbəb nədir? Nədir bu gün də kənddən şəhərə üz tutaraq, kənd həyatını bəyənməyən, lakin qəlbində həmişə onu yaşadanların qərəzi?

Bu karikaturaya təəssüf və gülüş hissiylə baxırsan. Bütün sərgilərdə "Sədr gic, katibə bic olanda" karikaturası uğur qazanmış, bu karikatura haqqında müxtəlif vaxtlarda görkəmli qələm sahibləri - B.Vahabzadə, A.Axundov, Q.İlkin, M.Abdullayev, S.Rəhman və bu kimi şəxsiyyətlər öz fikirlərini söyləmişlər. Katibə qolu ilə müdirin gözlərini tutmuş, həmin qolun əli ilə pəncərədən möhürlü sənədi başqa birisinə ötürür. "Gic müdirlərin" ümumiləşdirilmiş surəti kimi yaradılmış bu karikatura, "bic katibə"lərdən uzaqlaşmağı tövsiyə edir. İbrətamiz olduğu qədər, həyati olan bu tablo çoxfiqurludur, qara tuş və quaşla işlənilmişdir.

Bu mövzuda (şəhər) çəkilmiş sözsüz bir karikatura. Daha doğrusu bir mövzuda çəkilmiş iki karikatura. Birincidə hələ ailə həyatı qurmayan cütlük verilir - kişinin başında saçları, bunun hesabına başı xeyli böyük görünür, daha doğrusu bu simvolik olaraq "öz ağlıyla" durub oturan, öz sözü olan kişidir. İkinci şəkildə, əksinə qadının başındadır həmən böyüklük. Artıq evlənmişlər. Kişinin fikirlərinin ağası qadındır. O, nə deyirsə, yalnız sevimli arvadının sözü ilə durub oturmalıdır.

"Beləliklə, dissertasiyanı bir səslə müdafiə edirik" karikaturası da həyatılığı baxımından bu gün də aktual səslənir- dissertasiyaya rumka arxasından, banket salonlarından baxan "elmi şuraların" tənqidinə yönəlmiş bu karikatura elmə təsadüfi gələnləri tənqid hədəfinə tutur.

Kənd mövzusu daha maraqlıdır. "Öz inəyini" və fermanın inəyini yelləncəyə qoyan ferma müdiri. Müdirin şəxsi heyvanı o qədər ətli-canlıdır ki, binəva ferma inəyini yelləncəyin o biri başında havaya qaldırır. Şəxsi inəyin böyründə qarğıdalı və s. yemlər qoyulmuş, boynundan belə yeməli şeylərlə bəzənmiş boyunbağı asılmışdır və heyvan ağzında kökə tutmuş vəziyyətdə təsvir edilmişdir. Yazıq ferma inəyinin isə bu mənzərəni gördükdə yalnız ağzının suyu axır. Karikaturanın yazısını oxuyuruq. "Deyirlər ki, mən ictimai heyvandarlığı yüksəltmirəm, baxıb görsünlər, hansı yüksəklikdədir".

Və ya başqa karikaturanı götürək: istidən bişən qoyunların yun qırxımı gecikdirildiyindən onlar dəlləkxanaya üz tutublar. "Dəllək qağa, kolxozda yun qırxımı gecikdirilir, bəlkə sən bizə bir əlac eləyəsən", deyə insan kimi ayaq üstə duran qara qoyun dəlləyə müraciət edir. Kresloda başını qırxdıran ferma müdirini bu sözlər lap hövsələdən çıxarıb, üzündə qəribə ifadə var: "Yaxşı, bu dəfə də səni kabablıq eləmək mənə borc olsun" deyir yəqin ferma müdiri...

Budur, kənd həyatından daha bir lövhə- iki inək və bir qoyundan ibarət olan "nümayəndə heyəti" ferma heyvanlarının adından ərizə ilə sədrin yanına gəliblər. Onların qarşısını kəsən katibə: "Nahaq yerə gözləməyin. Sədr yaz tarla işləri ilə məşğuldur. Sizi qəbul etməyəcək " deyir. Bu karikaturanı sonrakı səhifədəki karikatura tamamlayır: Aqronom təşvişlə sədrə müraciət edərək bildirir ki, yaz əkinini başlamaq vaxtıdır. Sədr

isə: "Nə qədər ki, mən səndən bir pillə yuxarıdayam, yaz mövsümü mən başlayanda gələcək, yoldaş aqronom" deyə bağırır. Aqronom 1-ci pillədə, sədr isə 2-ci pillədə dayanmışlar, ətrafda bərbad vəziyyətdə olan kolxoz həyəti, sınmış kombayn görünür. Bu karikaturada özündən əvvəlki karikatura üçün nəticə hasil olur. Deməli, katibə inəkləri aldadır, sədr heç də yaz tarla işləri ilə məşğul deyil.

Rəssamın alleqorik janrdakı karikaturalarında ekologiya mövzusuna da təsadüf edirik. Onun "Təmsil yazan meşəyə girib" karikaturası bu cəhətdən çox baxımlıdır.

Artıq heyvanlar bu təmsilyazanı yaxşı tanıyırlar, hətta qorxulu pələng, meşənin şahı şir də, ayı, ceyran, dovşan... hamısı canını qurtarmaq üçün hara gəldi qaçırlar. Ən gülüş doğuranı dovşanın pələnglə yanaşı qaçmasıdır.

Bu gün öz şəxsi həyatının təmini üçün ekologiyaya olmazın zərər verənlər, ağacları özlərinə oduncaq edənlər bu karikaturaları seyr etməli, özlərinə ibrət dərsi götürməlidirlər. Belə karikaturalardan birində meşəbəyinin etinadsızlığını görürük. Yeyib-içib sərxoş olan meşəbəyi ona bu keyfi verənlərə qəti surətdə mane olmur, onlar sağ ağacları qıraraq maşınla daşıyırlar.

Uca bir ağaca qonmuş qarğa ona sual edir: "Yoldaş meşəbəyi, bunlar nə edir?" "Görmürsüz ki, qışa hazırlıq görürlər" - deyə, sərxoş meşəbəyi cavab verir, kəsilmiş nəhəng ağacın kötüyü üzərində oturan tülkü, qulaqlarını bir-birinə yapışdırıb bu mənzərəyə baxan qorxaq dovşan da meşəbəyinin hərəkətlərinə, daha doğrusu hərəkətsizliyinə, tüfeyliliyinə, el malına xor baxmasına məəttəl qalıblar.

Albomda xeyli "sözsüz" karikaturalar vardır. Bunlar haqqında da danışmağa xeyli sözümüz var, müğənni mahnı oxuyur, ön cərgədə onun konsertinə gəlmiş kişi və qadın oturub, qadının boynunda tülkü dərisindən boyunluq var, müğənninin səsi batır, daha doğrusu, necə deyərlər "xoruz buraxır", rəssam ikinci şəkildə müğənnini ağzından xoruz çıxan vəziyyətdə təsvir edir, boyunluq tülkü özünü itirmir, xoruzu tutmaq üçün atılır.

İlk baxışda gülüş, özü də qəhqəhə doğurur bu karikatura, lakin bu qəhqəhədə qəribə bir sarkazm var. Karikatura bu gün özünü "ulduz" adlandıran, lakin 2 notu sinədən oxumağa ehtiyat edənlərə əsl dərsdir.

Digər sözsüz karikatura üç hissədən ibarətdir. I şəkildə kişi qarpız alıb, bazardan evə gətirir, ikincidə-doğrayıb hamısını yeyir, III-də özü qarpız şəklini almışdır. Şəklin altında dahi Nizamının ölməz misralarını yazmaq istəyirsən: "Bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir su da". Və ya el məsəlini xatırlayırsan- "saman səninki deyil, samanlıq ki sənindir".

Sözsüz karikaturalarında rəssam tamaşaçıları düşünməyə vadar edir, qəribə cəhət də budur ki, alboma baxarkən, sözlülərdən daha çox sözsüzə diqqət edirsən. İstər-istəməz bir sual qarşısında durursan: "Rəssam bu karikaturada nə demək istəyib?".

Budur, ağzında tutduğu qəlyanın üstünə çaynik qoyan kişi, qəlyanı ilə çayniki qaynadır. Kişinin oturuşu, arxasındakı mütəkkə, altındakı döşəkcə, yerdə döşənmiş süfrə sırf kənd həyatından xəbər verir. Demək, kəndlərimizdə elektrik işığının qıtlığının tənqidinə yönəlib bu karikatura.

Sənətşünaslıq elmləri doktoru Mürsəl Nəcəfov Nəcəfqulunun karikaturalarını xarakterizə edərkən yazır: "Nəcəfqulunun karikaturaları süjet aydınlığı, qrafik dili, rəngarəngliyi və ən başlıcası mənfi tiplərin xarakter müxtəlifliyi ilə fərqlənir. O, tez-tez qrotesk formasına müraciət edir ki, bu da bürokratları, rəsmiyyətçiləri, böhtançıları və imzasız məktub yazanları ifşa edən karikaturaların təsvir gücünü artırır" (3, s.9).

Nəcəfqulunun karikaturaları arasında M.Ə.Sabirin və C. Məmmədquluzadənin əsərlərinin personajları mərkəzi yerlərdən birini tutur. Sənətşünas tənqidçi P.Hacıyev, "Zamanın boyaları" kitabında yazır:" Təqribən on altı il əvvəl yaradılan illüstrasiyalar silsiləsində Nəcəfqulu fırçası Sabir poeziyası incilərini şəkillərdə canlandırıb" (4, s.74-82). Budur, qarşımızda böyük şəxsiyyət, əvəzolunmaz şeirləri ilə nəzmimizin klassiklər zirvəsinə yüksələn M.Ə.Sabir durmuşdur.

Əynində boz rəngli pencək, başında buxara papaq, çiynində çanta əvəzinə "Hophopnamə"sini asmışdır. Bu adi kitab deyil, içərisi oxla doludur bu kitabın. Şairin əlində ox və kaman vardır. Onunla üzbəüz yalançı mollalar, milləti zillətdə saxlayan axundlar, maarifə düşmən kəsilənlər durmuşlar. Onlar şairin əlhəmini zail etməyə çalışırlar. Lakin şair onları hədəfə almış, mahir atıcı bacarığı ilə hamısını susdurmuşdur.

Rəssam şairin "2 həpənd" şeirinə çəkdiyi karikaturada mömin axundların əsas qayəsini, onların arzu və amallarını gözəl ştrixlərlə vermişdir (5).

- Nə xəbər var, məşədi?
- Sağlığın.
- Az-çox da yenə?
- Qəzet almış Hacı Əhməd də.
- Pah! Oğlan, nəmənə? Sən özün gördün alanda?
- Belə nəql eylədilər!...

-Dəxi kim qaldı, xudaya, bu vilayətdə mənə?!
Bu isə pəs o ləinin də işi qüllabıdır.
Dini imanı danıb, yoldan azıbdır, babıdır!

2 mömin, 2 nəhəng (əhvalüpürsanlıq yaxud qonuşma) şeirini oxuyarkən axund, mollanın əsl silahı ilə tanış olursan: xalqı xürafatda saxlamaq üçün sadəlövh, avamlıqlarından istifadə edərək, hər cür tərəqqini dinə qarşı qoymağa çalışırlar. Nəcəfqulu mollanın üzündəki hiyləgərliyi çatılmış qaşlarında, ətrafı bic-bic seyr etməsində göstərirsə də, axund daha hiyləgərdir, yerə baxır (suyun lal axanı, adamın yerə baxanı...).

Mömin lər bir-birini sual-cavab etdikdə bir tərəfdən qorxur, digər tərəfdən əhalinin maariflənməsinə mane olmaq üçün yollar axtarır və tapırlar da... "Deyirəm xəlqə: bu bidinin işi qüllabıdır, siz də lənət oxuyun, çünki bu məlun babıdır".

Nəcəfqulunun "Hophopnamə"yə çəkdiyi digər satirik illüstrasiya "düşdü bütün qəzetlər qiymətdən, aycan - aycan" - karikaturasıdır.

Qəzet nəşriyyatının bağlı, qıfıllı, üstündən də taxta ilə möhkəm bağlanılmış qapısı önündə duran iki mömin sevinir: - daha qəzetlər onların iç üzünü ifşa etməyəcəklər.

Sabirin məşhur "Qorxuram" şeirinə çəkilmiş satirik illüstrasiya da çox maraqlıdır. "Quli-biyaban, dalğalı tufan, yanğılı vulkan, bir sürü aslan, qəbirdə xortdan, cin, xeyli tühaf cinsan" görəndə qorxmayan şair, yalnız və yalnız müsəlman gördükdə qorxduğunu etiraf edir. Nə üçün?

Bu suala cavabı Nəcəfqulunun çəkdiyi illüstrasiya verir. Arxa planda küçədə yerə yıxdığı bir adamı bıçaqlayan qoçu, ondan arxada qaçaraq canını qurtarmağa çalışan şəxsi daşqalaq etməyə cəhd edən kişi... Ön planda bu dəhşətli səhnədən qorxuya düşən ziyalı görünür:

"Bisəbəb qorxmayıram, vəchi var,
Neyləyim axı, bu yox olmuşların,
Fikrini qan-qan görürəm qorxuram
Qorxuram, qorxuram, qorxuram"

Nəcəfqulu yaradıcılığında ölməz klassiklərimizə müraciət bir ənənəyə çevrilmişdir. İlk yaradıcılığında portret janrına müraciət edərkən Cəlil Məmmədquluzadənin portretini yaratmışdı və etiraf etmişdi ki, yaradıcılığı ilə ən çox maraqlandığı yazıçılardandır. Nəcəfqulu İsmayılov "Köhnə Bakının tipləri" albomunda yaratdığı tiplər qalereyası elə C.Məmmədquluzadənin tipləri ilə eynilik təşkil etmirmi? Mollalar, hacılar, aldanılan avam kəndlilər, "pristavların itini belə öpməyə" hazır olan Qurbanəli bəylər, Şeyx Nəsrullah, usta Zeynallar və s. "Ölülər" əsərinin əsas mənfi qəhrəmanı olan Şeyx Nəsrullah kitabın üz qabığında, əlində təsbeh tutmuş şəkildə təsvir edilmişdir.

Başqa bir karikaturada mərkəzdə Şeyx Nəsrullah və ətrafında əsərin digər personajları təsvir edilmişdir. Əvvəlcə övrətlərini, qardaşlarını, övladlarını diriltmək fikrinə düşən, lakin sonra tutduqları işlərin üstünün açılacağından qorxan bu adamların öz fikirlərindən daşınması həm gülüş, həm də dəhşət törədir. Bu, Nəcəfqulunun yaratdığı tiplərin üzündə aydın görünür: qorxu, təəssüf və peşmançılıq... Budur bu tiplərin əsas siması...

Nəcəfqulu İsmayılovun karikatura janrına müraciət etməsi heç vaxt təsadüfi olmamışdır və bu səbəbdən də keçici xarakter daşımamışdır.

"Kommunist" qəzetinin 1981-ci il 14 may tarixli sayında rəssamın "Molla Nəsrəddin" jurnalının 75-illiyi münasibətilə yazdığı "Satira məktəbi" məqaləsində oxuyuruq: "Bir sözlə, rəssamlıqda qazandığım nailiyyətlər üçün bilavasitə "Molla Nəsrəddin" jurnalına, onun banisi C.Məmmədquluzadəyə və kəskin satirası əsl silaha çevrilən Sabirə - bu iki dahinin yaradıcılığına minnətdaram" (6).

Rəssamın bu etirafı həqiqətən onun yaradıcılığında karikatura janrına daha çox üstünlük verilməsindən xəbər verir. Bu fikrimizi Sabit Rəhmanın "Nəcəfqulunun karikaturaları" adlı məqaləsi təsdiqləyir. "Nəcəfqulunun yaradıcılığı" üç istiqamətdə inkişaf edir; karikatura, illüstrasiya və yağlı boya ilə işlənmiş portret. Ancaq rəssamın əsas yaradıcılıq istiqaməti karikatura sahəsidir" (7).

Yaradıcılığa portret janrıyla başlayan, qrafikada püxtələşən rəssam, satirik qrafikaya üstünlük verərək, karikatura janrında yaradıcılığının zirvəsinə yüksəlir. Məhz karikatura janrı onu daha çox sevdirir, daha geniş tamaşaçı auditoriyasına çıxarır. Moskvada 1981 ilin sonlarında əməkdar incəsənət xadimi Nəcəfqulunun fərdi yaradıcılıq sərgisi keçirilir. Sənətşünaslıq doktoru P.Hacıyev "Kamil sənətkar" məqaləsində yazır: "Sovet satirik qrafika sənətinin qocaman ustası M.Abramovun kataloqdakı səmimi ön sözüylə tamaşaya başlayan moskvalılar ilk əvvəl Azərbaycan rəssamının sərrast karikaturalarını gördülər.

Şəkillərdən bol-bol gülüş, istehza və eyhamı, mənalı rəssam təbəssümü hamını sevindirir, güldürüb düşündürürdü..." (8).

Dəfələrlə doğma yurdu Bakıda, Azərbaycanın gülüş muzeyi hesab olunan Şəkidə (9) və digər bölgələrində fərdi yaradıcılıq sərgisi keçirilən Nəcəfqulunun yaradıcılığı, xüsusən satira və yumor sahəsindəki nailiyyətləri Vətəndən uzaqlarda da onu məşhur etmişdir.

Sənətşünaslıq doktoru N.Həbibov 1982-ci ildə yazırdı: "Nəcəfqulu mahir satira ustası kimi Ümumittifaq miqyasında tanınmışdır. O, Bolqarıstanda keçirilmiş "Qabrovo-73" beynəlxalq karikatura sərgisinin iştirakçısıdır" (10).

**Karikaturaları ilə tamaşaçı rəğbətini qazanan rəssam eyni zamanda dostluq şarjları, barelyeflər, qalvanika, qalvanoplastika sahəsində də böyük uğurlar qazanmışdır. Növbəti məqaləmizdə rəssamın yetkin yaradıcılıq dövründən bəhs edəcəyik.**

**Vüqar ABDULLAYEV,**
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının aspirantı*

## Ədəbiyyat

1. M. Abdullayev "Satira ustası". "Bakinski raboçi" qəzeti, 13 avqust 1982-ci il.
2. S.Dağlı "Köhnə Bakının tipləri." B. 1974.
3. M.Nəcəfov "Azərbaycanın karikaturaçı rəssamları" B. "İşıq" 1972.
4. P. Hacıyev "Zamanın boyaları." B. 1979.
5. M. Ə. Sabir "Hophopnamə" B. 1963.
6. İ. Nəcəfqulu "Satira məktəbi", "Kommunist" qəzeti, 14 may 1981-ci il.
7. S. Rəhman " Nəcəfqulunun karikaturaları", "Ədəbiyyat və incəsənət" qəzeti, 26 iyul 1985-ci il.
8. P.Hacıyev "Kamil sənətkar", "Qobustan" jurnalı, 1982 № 2.
9. H.Atakişiyev "Gülüş muzeyinin eksponatları", "Bakinski raboçi" qəzeti, 13 avqust 1983-cü il.
10. N.Həbibov "Barelyeflər, şarjlar və karikaturalar", "Kommunust" qəzeti, 13 iyul 1982-ci il.

## Резюме

Наджафкули Исмаилов жил и творил в течение 50 лет прошлого столетия. В его творчестве особенное место занимают графические произведения. Художник в течение многих лет являлся главным художником сатирического журнала "Кирпи". Интерес к жанру графики, особенно сатирической графике у художника возник не случайно. Это было неизбежно, ведь он испытал свои силы почти во всех жанрах изобразительного искусства. Его альбом "Старый Баку" является ярким примером исключительного дарования художника. Изображая людей прошлого, Наджафкули Исмаилов не стремится поновому создать их образ, напротив, он пытается сохранить их такими, какими они есть в памяти зрителя, но внося свое, новое в виде мелких штрихов и деталей. В этом и заключается талант и мастерство художника Наджафкули Исмаилова.

## Summary

The prominent artist Nadjafgulu Ismayilov lived and worked during 50 years of the past century. In his creative works special place take graphic works. The artist was head artist of the satiric magazine "Kirpi" during many years. The interest to the graphic genre and particularly to satiric graphic didn't come to him casually. It was inevitable, because he had tested his power almost in all genres of the art. His album "Old Baku" is the striking example of the exclusive ability of the artist. Nadjafgulu does not want to create new faces of the famous people. Otherwise, keeping old forms he brings innovation to these faces. He does everything to keep historical faces and events in the memory of people, interested in the history of Azeri people. This is what distinguishes him from other artists. He wants to be remembered in this way.

**Təqdim etdi:** Akademiyanın incəsənət tarixi kafedrası
**Elmi rəhbər:** sənətşünaslıq doktoru, professor Kübra Əliyeva